# Qəbələni Milli Məclisdə iki deputat təmsil edəcək

1 sentyabr 2024-cü il tarixdə yeddinci çağırış Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçirilmişdir. Xatırladaq ki, sentyabrın 21-də Konstitusiya Məhkəməsi Plenumunun xüsusi Konstitusiya icraatı üzrə iclasında yeddinci çağırış Milli Məclisə keçirilmiş seçkilərin nəticəsi təsdiqlənib.

Sentyabrın 23-də yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası keçirilib.

İclasın əvvəlində Azərbaycan Respublikasının Dövlət Himni səslənib.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisdə nitq söyləyib.

Daha sonra Milli Məclisin ən qocaman deputatı kimi iclasa sədrlik edən Ziyad Səmədzadə Yeddinci çağırış Milli Məclisin ilk iclasını açıq elan edib.

Z. Səmədzadə Milli Məclisə üzv seçildiklərinə görə deputatları təbrik edib və yeddinci çağırış Milli Məclisə seçilmiş deputatların siyahısını oxuyub.

İclasda Milli Məclisin Hesablayıcı komissiyasının yaradılması barədə məsələyə baxılıb. Deputatlar Naqif Həmzəyev, Sevinc Hüseynova, Eldar Quliyev, Soltan Məmmədov, Rövşən Muradov, Səbinə Salmanova, Mixail Zabelin komissiyanın üzvləri seçiliblər.

Ziyad Səmədzadə diqqətə çatdırıb ki, ikinci məsələ - Milli Məclis sədrinin seçilməsi məsələsidir. O, qeyd edib ki, Milli Məclisin Daxili Nizamnaməsinin 33-cü maddəsinə görə, Milli Məclisin sədri vəzifəsinə namizədliyi parlamentin deputatları irəli sürə bilərlər. Bildirilib ki, parlament çoxluğunu təşkil edən Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndələri bu gün yığıncaq keçirərək, Milli Məclisin sədri vəzifəsinə öz namizədlərini müəyyən ediblər.

Sonra deputat Eldar İbrahimov parlamentin sədri vəzifəsinə Yeni Azərbaycan Partiyasının namizədini təqdim edib. YAP-ın 68 deputat mandatı qazanaraq parlament çoxluğuna sahib olduğunu xatırladan E.İbrahimov diqqətə çatdırıb ki, Partiyadan Milli Məclisə seçilmiş deputatlar parlamentdə çoxluq hüququndan istifadə edərək və partiya sədrinin tövsiyəsini nəzərə alaraq, Milli Məclisin sədri vəzifəsinə deputat Sahibə Qafarovanın namizədliyini irəli sürür.

İclasda çıxış edən Milli Məclisin deputatı Sahibə Qafarova Milli Məclisin sədri vəzifəsinə onun namizədliyinin irəli sürülməsinə görə



Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə və partiya həmfikirlərinə dərin minnətdarlığını bildirib.

Ziyad Səmədzadə bildirib ki, deputat Eldar Quliyev Hesablayıcı komissiyanın sədri, deputat Mixail Zabelin isə komissiyanın katibi seçiliblər.

Sahibə Əli qızı Qafarova gizli səsvermə nəticəsində Milli Məclisin sədri vəzifəsinə seçilib.

Sonra gündəliyin üçüncü məsələsinə - Milli Məclis sədrinin birinci müavininin seçilməsi məsələsinə baxılıb və açıq səsvermə yolu ilə Əli Cavad oğlu Əhmədov parlament sədrinin birinci müavini seçilib.

Növbəti üç məsələ Milli Məclis sədrinin müavinlərinin seçilməsi məsələsi olub. Ziyafət Abbas oğlu Əsgərov, Musa Cəfər oğlu Qasımlı və Rafael Baba oğlu Hüseynov Milli Məclis sədrinin müavinləri seçiliblər.

Parlamentin sədri Sahibə Qafarova gündəliyin yeddinci məsələsinin Milli Məclisin İntizam Komissiyasının yaradılması olduğunu bildirib. İntizam komissiyasının tərkibinə deputatlar Kamal Cəfərov, Afət Həsənova, Məlahət İbrahimqızı, Eldar İbrahimov, Kamaləddin Qafarov, Nəsib Məhəməliyev, Hikmət Məmmədov, Məşhur Məmmədov, Asim Mollazadə, Səttar Möhbalıyev və Nizami Səfərovun namizədlikləri təklif edilib. Komissiyanın tərkibi səsə qoyularaq qəbul olunub.

Sədr gündəliyin səkkizinci məsələsinin Milli Məclisin komitələrinin sədrlərinin seçilməsi olduğunu diqqətə çatdırıb.

İclasda deputat Əli Hüseynli Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin, Arzu Nağıyev Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin, Zahid Oruc İnsan hüquqları komitəsinin, Sadiq Qurbanov Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin, Azər Əmiraslanov İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin, Tahir Rzayev Aqrar siyasət komitəsinin, Musa Quliyev Əmək və sosial siyasət komitəsinin, Əhliman Əmiraslanov Səhiyyə komitəsinin, Hicran Hüseynova Ailə, qadın və uşaq məsələləri komitəsinin, Şahin İsmayılov Gənclər və idman komitəsinin, Fazil Mustafa İctimai birliklər və dini qurumlar komitəsinin, Siyavuş Novruzov Regional məsələlər komitəsinin, Anar İsgəndərov Elm və təhsil komitəsinin, Polad Bülbüloğlu Mədəniyyət komitəsinin, Səməd Seyidov Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədrləri təsdiq ediliblər.

Sahibə Qafarova gündəliyin sonuncu - doqquzuncu məsələsinin Milli Məclisin komitələrinin sədr müavinlərinin seçilməsi haqqında olduğunu söyləyib.

Sonra Deputat Elşən Musayev Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin, Qüdrət Həsənquliyev Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin, Arzuxan Əlizadə İnsan hüquqları komitəsinin, Fatma Yıldırım Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin, Azər Badamov İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin, Razi Nurullayev Aqrar siyasət komitəsinin, Elşad Musayev Əmək və sosial siyasət komitəsinin, Rəşad Mahmudov Səhiyyə komitəsinin, Jalə Əliyeva Ailə, qadın və uşaq məsələləri komitəsinin, Könül Nurullayeva Gənclər və idman komitəsinin, Sahib Alıyev İctimai birliklər və dini qurumlar komitəsinin, Nurlan Həsənov Regional məsələlər komitəsinin, Fariz İsmayılzadə Elm və təhsil komitəsinin, Günay Əfəndiyeva Mədəniyyət komitəsinin, Nigar Arpadarai Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavinləri təsdiq olunublar.

Prezident İlham Əliyevin Milli Məclisin işi ilə bağlı tövsiyələrini birlikdə yerinə yetirmək üçün deputatların var güclərini səfərbər edəcəklərinə əminliyini bildirən S.Qafarova onları bir daha təbrik edib, işlərində uğurlar arzulayıb.



Bununla da yeddinci çağırış Milli Məclisin iclası başa çatıb.

**Elşən Məmmədhənifə oğlu Musayev,** 117 saylı Oğuz-Qəbələ seçki dairəsindən Azərbaycan Respublikası Milli Məclisinin deputatı.

Elşən Musayev 1979-cu il avqustun 11-də Oğuz şəhərində anadan olmuşdur. Bakı Dövlət Universitetinin Beynəlxalq hüquq və beynəlxalq münasibətlər fakültəsinin Beynəlxalq hüquq ixtisası üzrə bakalavr və magistr pillələrini bitirmişdir. İngilis, rus və alman dillərini bilir. 2001-2003-cü illərdə Ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikası Məhkəməsində məhkəmə nəzarətçisi işləmiş, 2009-2010-cu illərdə Azərbaycan Respublikası Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri komissiyasının, 2010-2015-ci illərdə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin eksperti vəzifəsində çalışmışdır.

Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədridir.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvüdür. Belarus, Braziliya, Cənubi Afrika Respublikası, Çexiya, İtaliya, Qətər, Malayziya, Türkiyə, Türkmənistan parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür. Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

2015 və 2020-ci ildə 110 saylı Zaqatala seçki dairəsindən Milli Məclisə deputat seçilmişdir. Milli Məclisin Regional məsələlər komitəsi sədrinin müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvüdür. Belarus, Braziliya, Cənubi Afrika Respublikası, Çexiya, İtaliya, Qətər, Malayziya, Pakistan, Serbiya, Tailand, Türkiyə, Türkmənistan parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

NATO-nun Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür. Evlidir, 1 övladı var.

**Eyvaz Daşdəmir oğlu Qurbanov,** 117 saylı Oğuz-Qəbələ seçki dairəsindən Azərbaycan

Respublikası Milli Məclisinin deputatı.

Eyvaz Daşdəmir oğlu Qurbanov 1963-cü il fevralın 14-də Oğuz rayonunun Bucaq kəndində anadan olub. 1980-ci ildə Oğuz şəhər 2 saylı orta məktəbini bitirib. 1981-1983-cü illərdə hərbi xidmətdə olub. 1984-1988-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda, 2001-2004-cü illərdə isə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında təhsil alıb. Yeni Azərbaycan Partiyasının üzvüdür

1997-ci ildən Avropa Şurasının İdmanın İnkişafı Komitəsində respublikamızı müntəzəm olaraq təmsil etmişdir. Azərbaycan Milli Olimpiya Komitəsinin üzvüdür.

Azərbaycan Milli Olimpiya Komitəsi Təftiş komissiyasının üzvüdür. Rus dilini bilir. 1988-ci ildən Oğuz rayonunda orta məktəbdə müəllim işləmişdir. 1994-cü ildən T.Bəhramov adına Respublika Stadionunun direktoru vəzifəsində çalışmışdır. 2000-ci ildən «Olimpiya» idman kompleksinin direktorudur. Yeni Azərbaycan Partiyasının üzvüdür. Milli Məclisin Sosial siyasət daimi komissiyasının üzvüdür. Azərbaycan-Avstriya, Azərbaycan-Macarıstan, Azərbaycan- Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

2005-2010-cu illərdə isə Oğuz- Qəbələ seçki dairəsindən Azərbaycan Respublikası Milli Məclisinin III çağırışM deputatı olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2011-ci il tarixli Sərəncamı ilə Oğuz Rayonu İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilmişdir. O, 16 iyul 2024-cü ildə vəzifəsindən azad edilmişdir.

Evlidir, 2 övladı var.

# İşgüzar səfər



5-8 sentyabr 2024-cü il tarixlərində Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Qəbələ rayonu ilə qardaşlaşmış Belarus Respublikasının Qrodno şəhərində işgüzar səfərdə olmuşdur. Səfər çərçivəsində nümayəndə heyəti şəhər rəhbərliyi ilə görüşmüş, Belarus Respublikasının Qrodno şəhəri ilə Azərbaycan Respublikasının Qəbələ rayonu arasında mövcud əlaqələrin perspektivləri müzakirə edilmişdir. Həmçinin səfər zamanı nümayəndə heyətimiz Böyük Vətən Müharibəsi iştirakçılarının xatirəsinə həsr olunmuş abidə kompleksini ziyarət etmiş və Qrodno Beynəlxalq İqtisadi Forumunda iştirak etmişlər. Forum çərçivəsində “Qəbələ şəhəri (Azərbaycan Respublikası) ilə Qrodno şəhəri (Belarus Respublikası) arasında



2024-2026-cı illər üçün qarşılıqlı qardaşlaşmış şəhər əlaqələrinin yaradılmasına dair “Anlaşma Memorandumu”nun həyata keçirilməsi haqqında Tədbirlər Planı - “Yol xəritəsi” imzalanmışdır. Daha sonra nümayəndə heyəti Qrodno şəhərinin sənaye, iqtisadi və turizm potensialını əks etdirən sərginin açılış və sərgiyə baxış mərasimlərində, şəhərin 896-cı ildönümü münasibətilə təşkil edilmiş “Şəhər günü” bayram tədbirlərində və ənənəvi "Pendir" festivalında iştirak etmişlər.